# Bir şəhid ailənin tarixçəsi



Teymur ƏHMƏDOV

***Xalqımızın böyük şəxsiyyətlərindən biri olan yazıçı, publisist, həkim, ictimai xadim Nəriman Nəcəf oğlu Nərimanov 150 il bundan öncə aprel ayında doğulub. Bu böyük şəxsiyyətin 150 illik yubileyinin qeyd edilməsi münasibəti ilə ölkə prezidenti cənab İlham Əliyev Sərəncam imzalayıb. Biz də öz növbəmizdə Nəriman Nərimanovun həyatını, yaradıcılığını, fəaliyyətini geniş araşdıran filologiya elmləri doktoru, professor Teymur Əhmədovun Nərimanovlar ailəsi ilə bağlı kədərli, amma gerçəyin özü olan sənədli əsərini oxucuların diqqətinə təqdim edirik.***

**1925-ci il yanvarın 14-də Moskvada Şərqşünaslıq İnstitutunda SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Nəriman Nərimanovun ədəbi-ictimai fəaliyyətinin 30 illiyi təntənə ilə keçirildi. Ümumittifaq mətbuatında geniş əks-səda doğurdu. "Nadir şah" tarixi faciəsinin tamaşası moskvalıların marağı ilə qarşılandı. N.Nərimanovun bədii əsərləri öz tərcüməsində rus dilində dərc olunub yayıldı. Hər yerdən - respublikalardan və xarici ölkələrdən təbrik teleqramları gəlirdi.**

Aramsız yağan qar yolu-izi tutmuşdu: geniş prospekt, meydanlar və parklar tanınmaz olmuşdu. Hər axşam şaxta düşürdü. İşdən axşam qayıdan Nəriman Nərimanov yeməkdən sonra geniş isti otaqlarda fikirli-fikirli gəzib dolaşır, divanda əyləşib dincələndə 6 yaşına yenicə çatmış Nəcəflə söhbət edərdi.

## Son günlər

***ürəktutmaları ara vermirdi. Gülsüm xanım onun iş otağına bir qayda olaraq, kiçik qrafində su, stəkan, ürək dərmanı - məcməyidə aparıb stolun sol küncünə qoyardı. Gecə yarıyadək Nərimanov nə isə yazırdı. Hərdən papiros çəkər, fikirli-fikirli düşünərdi. Bu narahatlığın SSRİ Mərkəzi Komitəsində çaxnaşma ilə əlaqəli olduğunu bilən arvadı ondan heç nə soruşmazdı.***

1925-ci il yanvarın 28-də N.Nərimanov 6 yaşlı Nəcəfə məktubunu - ata nəsihəti və məsləhətini yazmağa başladı. Ertəsi gün Gülsüm xanım yarımçıq əlyazmanı oxuyub çox üzüldü. Ərinin mənəvi aləmində baş verən sıxıntının səbəblərindən xəbər tutdu. Yanaqlarını isladan göz yaşını sağ əlinin arxası ilə sildi. Vanna otağına gedib yuyundu. Sonra otağa keçib divanda əyləşdi. Məktubdakı fikirlər Gülsüm xanımı tərk etmirdi: Leninin ölümündən sonra Nərimanov Mərkəzi Komitədə başı dedi-qodulara qarışıb vacib işləri əldən buraxan görkəmli rəhbərlərin hakimiyyəti uçuruma apardıqlarını görür, onlarla barışmırdı... Oğluna müraciətlə yazırdı: "İndi bu sətirləri sənə yazdığım vaxt işimiz o yerə çatıb ki, ən yaxın kommunist dostlar Lenindən sonra özlərini onun qanuni varisi adlandıran şəxslərin dövləti idarə edə bilməmələrindən yaranan nöqsanlarımız barədə bir-birilə danışa bilmirlər...

Bunları sən mənim MK-dakı geniş məruzəmdən öyrənəcəksən. Həmin məruzə sənə bütün bunlardan baş çıxarmağa imkan yaradacaq və elə bu məruzədən də öyrənəcəksən ki, çoxları öz vəzifə-mənsəblərini itirə biləcəkləri qorxusundan dinmədikləri halda, sənin atan bu barədə cəsarətlə danışırdı".

## Nəriman Nərimanov

əqidəsi, vicdanı qarşısında MK-da qeyri-rus xalqların, eləcə də imperialistlərin əsarətinə və təxribatına məruz qalan Şərq xalqlarının taleyinə biganəlik göstərən hakimiyyət düşkünlərinə qarşı şüurlu olaraq tarana gedirdi. N.Nərimanovu fikrindən döndərmək çətin idi.

Kremldə, Sov. İKP MK bürosunun 1925-ci il martın 19-da saat 3-də başlanan iclası axşam başa çatdı. Cari məsələlərdən sonra N.Nərimanovun məruzəsi ətrafında çıxışlar gərgin keçdi.

Axşam saat 8-də N.Nərimanov Kremlin Spask darvazasından çıxıb Qızıl meydana sarı, oradan Moskva çayına tərəf getdi. Nəfəsi təngiyirdi, ürəyi sancırdı. Moskva çayı körpüsünə yaxınlaşıb sağ əli ilə məhəccərdən tutub dayandı: gözlərini yummuşdu, ağır-ağır nəfəs alırdı, ürək tutması sakitləşmək bilmirdi. Kreml xəstəxanasının şəfqət bacısı Tanya Nərimanovu tanıdı. Sol qolundan tutanda N.Nərimanov gözlərini açdı:

- Yoldaş Nərimanov, toxtayın, maşın çağırım, - deyə, yaxındakı telefon budkasına yaxınlaşdı - sonra geri qayıtdı. Təcili yardım tez gəldi. Tanya Nərimanovun qolundan tutub onu həkimlərin köməyi ilə avtomobilə çıxardılar. Təzyiqini ölçüb profilaktik tədbir gördülər. Kreml xəstəxanasına çatarçatmaz Nərimanov müvazinətini itirdi. Sağ əlini ürəyinin üstünə qoyub, gözlərini əbədi yumdu.

N.Nərimanov 1925-ci il martın 19-da, axşam saat 8:30-da ürək partlamasından qəflətən vəfat etdi.

Bu xəbər ildırım sürəti ilə yayıldı.

N.Nərimanovun cənazəsi İttifaq Evinin sütunlu salonuna qoyuldu (19 mart 1925-ci il). Həmin gün saat 1-dən etibarən Moskva şəhərinin və bütün dövlət müəssisələrində iş dayandırılmışdı. Matəm günü bütün tamaşalar, konsertlər, kino və digər əyləncələr ləğv edilmişdi. N.Nərimanovun cənazəsi ətrafında saysız-hesabsız əklillər içərisində Rusiya Kommunist Bolşevik partiyasının adından qoyulmuş əklildə yazılmışdı: "Şərq xalqlarının inqilabi rəhbərinə və imperializm zülmü altında olanların tam azadlığı uğrunda çarpışmış mübarizə".

Q.K.Orconikidze çıxışında demişdir: "...Nərimanov Zaqafqaziya üçün milli sülh uğrunda yorulmaz mübarizlərdən biri idi. Nərimanov yoldaş partiyamızın ən yaxşı mübariz bayraqdarı idi. Nərimanov yoldaş azad olunmaqda olan Şərqin simvoludur".

Trotski göndərdiyi teleqramda yazmışdı: "Şərq xalqlarının azadlıq mübarizəsinin şanlı rəhbəri yoldaş Nərimanovun ölümündən sarsıldım".

1925-ci il martın 22-də Nəriman Nərimanov Moskvada Qızıl meydanda Kreml divarı önündə dəfn edilərkən, matəm mitinqində M.İ.Kalinin öz nitqində "Nərimanov şəxsində Qızıl meydan Şərq xalqlarından ilk qurbanı qəbul edir..." deməsi təsadüf deyildi.

## Dəfn vaxtı

**SSR İttifaqının ərazisində və xarici dövlətlərin səlahiyyətli nümayəndəliklərində bütün dövlət bayraqları 5 dəqiqə endirilmişdir. N.Nərimanov torpağa tapşırılarkən Moskva vaxtı ilə saat 13:00-da Qızıl Ordunun bütün qarnizonlarında toplardan yaylım atəşi açılmışdır.**

N.Nərimanovun qardaşı və bacısı uşaqları da matəmdə iştirak edirdilər. Onlar sarsıntı keçirən Gülsüm xanımın



və Nəcəfin yanında qalır, dərdinə şərik olurlar. Hər gün Qızıl meydanda əklillərlə əhatə olunmuş N.Nərimanovun məzarına baş çəkir, xısın-xısın ağlaşırlar. Qonşu qadınlar hər gün xəstəhal Gülsüm xanıma baş çəkirlər. Poçtalyon N.Nərimanovun yaşadığı ünvana (Moskva, Komitern küçəsi, ev 4, mənzil 24) hər gün yığın-yığın məktub və teleqram gətirirdi.

Gülsüm xanım ailə faciəsinə dözə bilmirdi. Ciddi mənəvi sarsıntı keçirmişdi, həkimlərin nəzarəti altında müalicə olunurdu. Səhhəti yaxşılaşdıqca o, oğlu Nəcəfin taleyini - böyüdüb ərsəyə çatdırmasını düşünürdü. Bu fikir onun qəlbində elə bil ki, analıq borcunu artırmışdı.

Nəcəf gecələr yuxuya gedəndən sonra Nərimanovun kabinetində stol arxasında əyləşər, Nərimanovun qarşıdakı divarda canlı fotoşəklinə baxar, yanaqlarını isladan göz yaşlarını silən dən sonra sonra toxdayar, xəyalən həyatını qurban verən - şəhid ömür yoldaşı, sirdaşı, ümidi Nərimanla xəyalən dərdləşər, məsləhətləşərdi.

Gülsüm xanım kiçik yaşlarında ailə şəraitində təhsil almışdı. Gənc yaşlarında N.Nərimanovla ailə həyatı qurandan sonra, 1916-1917-ci illərdə Bakıda gizli-inqilabi fəaliyyətlə məşğul olmuşdur.

O, N.Nərimanovun tapşırığı ilə qadın hərəkatına qoşulmuş, müsəlman qadınlar arasında qeyri-leqal ədəbiyyat, inqilabi vərəqələr yaymışdır. 1918-1919-cu illərdə Həştərxanda N.Nərimanovun "Xalq universitetləri"nin və "Ağ çiçək" mərasimlərinin təşkilində yaxın köməkçisi olmuşdur.

## Moskva dövründə

- 1919-cu ildə Nəcəfin anadan olması Nərimanovlar ailəsinə sevinc bəxş etmişdi. 1920-1921-ci ildə N.Nərimanov Bakıda xalq komissarları sovetinin sədri işlədiyi gərgin vaxtlarda Gülsüm xanım Bakıda ilk əlillər evinin, körpələr evinin və uşaq bağçalarının təşkilində fəal iştirak etmişdir.

Eyni zamanda müsəlman qadınlarının ümumtəhsil kurslarında təhsil almışdır.

1922-1925-ci illərdə Moskvada ailə şəraiti Gülsüm xanımın işləməsinə imkan verməmişdir.

İndi Gülsüm xanım işləməyə məcbur idi. Onun pessimizmə qapılmasına, xəstələnməyə haqqı yox idi. N.Nərimanov ona Nəcəfi sağlam, cəmiyyətə, atasına layiq övlad kimi böyütməyi tapşırmışdı.

## N.Nərimanovun oğluna yarımçıq məktubunda

***Nəcəfə yazdığı sözlər bir an da yaddan çıxmırdı: "Əziz oğlum Nəcəf! Əgər ömür vəfa qılsa, çalışacağam səni elə hazırlayım ki, bəşəriyyət üçün daha çox iş görəsən. Ancaq taleyin hökmülə tezliklə əbədi məskənə köçəsi olsam, onda səndən xahişim bu olur ki, heç olmasa daim özgələrin dərd-sərini çəkən atan kimi cüzi işləri yerinə yetirəsən".***

N.Nərimanovun oğluna nəsihəti Gülsüm xanım üçün məsləhət, ataanalıq borcu idi ki, onu yerinə yetirmək onun öhdəsinə düşürdü.

Moskvada ərzaq çatışmazlığı, qıtlıq idi. Gülsüm xanımın təqaüdü və Kreml yeməkxanasından göndərilən gündəlik xörəklə ana-bala təmin olunurdular. N.Nərimanovun vəfatından üç il keçdikdən sonra Nəcəf orta məktəbin birinci sinfində təhsil aldığı bir vaxtda 1928-ci il oktyabrın 24-də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə ona həddi-buluğa çatanadək təqaüd verilməsi qərara alınmışdı.

Amma Gülsüm xanım bilirdi ki, Nəcəfi boya-başa çatdırmaq, onun gələcəkdə mükəmməl təhsil almasına və atasının arzuladığı kimi "bəşəriyyət üçün daha çox iş görməsi" səviyyəsində bilikli, qabiliyyətli ziyalı kimi ərsəyə gəlməsinə, dolanacaqlarına ancaq çatan təqaüd kifayət etməzdi. Ona görə də əmək fəaliyyətini davam etdirməli idi.

O, niyyətini həyata keçirməkdən ötrü, birinci növbədə, ümumtəhsilini artırmaq məqsədi ilə Moskvada Pakrovski adına sosial-iqtisadi təmayüllü fəhlə fakültəsinə daxil olur. Bütün gücünü səfərbərliyə alır: - mütaliə edir, öz düşüncələrini, xatirələrini yazırdı. Qaynar ictimai həyatda duruş gətirmək üçün ciddi hazırlaşırdı. Bununla belə, Nəcəfin istirahəti, gündəlik dərsləri ilə ciddi məşğul olurdu.

## 1931-1935-ci illərdə

Gülsüm xanım Timirzayev adına Moskva Universitetinə daxil olur. Tələbəlik illərində həmkarlar komitəsi tərkibində fəal ictimai işə cəlb olunur. Tələbələrin təhsil və məişət şəraitinin yaxşılaşdırılmasına yardım edir.

Universitetin kənd təmayüllü fakültəsindən könüllü tələbələri Qaragülçülük institutuna göndərəndə Gülsüm Nərimanova da dövlətin böyük diqqət yetirdiyi bu sahəyə maraq göstərir.

**Hər il payızda qışa hazırlıq ərəfəsində institutun tələbələrini Qərbi Sibir və Özbəkistana yenicə təşkil edilən kolxoz və sovxozlara köməyə göndərərdilər. İstehsalat təcrübəsi keçmək adı ilə ezamiyyətə gedən tələbələr iki ay fəhləlik edib əməkhaqqı alırdılar. Tələbələr fəhlə briqadasında ot yığır, silos üçün şırımlar qazır. Gecələr at belində sosialist mülkiyyətini qoruyurdular: əkilmiş tarlalara, ot tayalarına, anbarlara keşik çəkirdilər.**

(ardı olacaq)